


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 220 (23.632)

*17 dekabr 2020-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**İsayev Səid Qurban oğlu – polkovnik**
**Məhərrəmov Etibar İsmayıl oğlu – polkovnik**
**Mənsimov Tehran Cavid oğlu – polkovnik**
**Eyyubov Məmmədbağır Niftalı oğlu – polkovnik-leytenant**
**Əhmədov Səid Fərhad oğlu – polkovnik-leytenant**
**Vəliyev Nizami Dünyamin oğlu – polkovnik-leytenant**
**Hüseynov Ramil Şakir oğlu – mayor**
**Təhməzov Ceyhun Mirzəbaba oğlu – mayor**
**Zeynalov Təbriz Eyvaz oğlu – mayor**
**Babaxanov Elman Ağamirzə oğlu – kapitan (ölümündən sonra)**
**Xəmmədov Vüsal Bayram oğlu – kapitan**
**Kərimov Əli Valeh oğlu – kapitan**
**Məmmədzadə Rüfət Afət oğlu – kapitan**
**Musayev Mirza Ramiz oğlu – kapitan**
**Əhmədov Coşqun Valeh oğlu – baş leytenant**
**Rəhimov Elvin Ehtiram oğlu – baş leytenant (ölümündən sonra)**
**Şirəliyev Sahib Yusif oğlu – baş leytenant (ölümündən sonra)**
**Ənvərli Aqşin Faiq oğlu – tibb xidməti leytenantı (ölümündən sonra)**
**Əzimov Ramazan Həmid oğlu – gizir**
**İbrahimov Ruzi Əliağa oğlu – çavuş (ölümündən sonra)**
**Abdullayev Qalib Elməddin oğlu – kiçik çavuş**
**Əhmədov Əhmədxan Məzahir oğlu – əsgər (ölümündən sonra)**
**Həsənov Samiq Caməmməd oğlu – əsgər**
**İbrahimov Qurban Namiq oğlu – əsgər (ölümündən sonra)**
**Salahov Elnur Elbrus oğlu – əsgər**
**Tağıyev Azər Kamil oğlu – əsgər (ölümündən sonra)**

“Azərbaycan Bayrağı” ordeni ilə,

**Gözəlov Əlqəm Əhəd oğlu – mayor**
**Məhərrəmov Məftun İntizam oğlu – mayor**
**Ağayev Zaur İbrahim oğlu – kapitan**
**Allahyarov Elvin İkram oğlu – kapitan**
**Əliyev Bəxtiyar Bulud oğlu – kapitan**
**Aslanzadə Əli Maqsud oğlu – baş leytenant**
**Babayev Gündüz Ulduz oğlu – leytenant**
**Həsənov Məzahir Heybət oğlu – leytenant**
**Haşımov Tural Şöhrət oğlu – baş gizir**
**Məmmədov Əjdər Xəlil oğlu – baş gizir**
**Muradov Röyal Zahid oğlu – baş gizir**
**Mustafazadə Kamran Qafar oğlu – baş gizir**

3-cü dərəcəli “Rəşadət” ordeni ilə,

**Qurbanov Rüfət Telman oğlu – polkovnik**
**Ənnağıyev Valeh Şaiq oğlu – polkovnik-leytenant**
**Qasımzadə Vasif Arif oğlu – mayor**
**Zeyniyev Nəsir Rəfail oğlu – mayor**
**Məmmədli Samir Nüsrət oğlu – kapitan**
**Namazlı Emin Vidadi oğlu – kapitan**
**Abbasov Əkrəm Zakir oğlu – baş leytenant**
**Rüstəmov Azad Mahir oğlu – baş leytenant**
**Əhmədov Elgün Ədalət oğlu – leytenant**
**İsmayılov Əflatun Tahir oğlu – leytenant**
**Məmmədli Toğrul Adil oğlu – leytenant**
**Nəcəfov Emin Məhərrəm oğlu – gizir**
**Əsgərov Əsgər Bayram oğlu – çavuş**
**Kərimov Mərhamət Məzahir oğlu – kiçik çavuş**
**Məmmədov Şəhruz Şirməmməd oğlu – kiçik çavuş**
**Şükürov Əziz Kamal oğlu – kiçik çavuş**
**Quliyev Zaman Muxtar oğlu – əsgər**
**Mahmudzadə Səid Səlim oğlu – əsgər**
**Musayev Siruz Firuz oğlu – əsgər**
**Nazarov İsmayıl Qeys oğlu – əsgər**
**Rüstəmov Zaman Turab oğlu – əsgər**

3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları “Vətən uğrunda” medalı ilə təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Əliyev Anar Vaqif oğlu – polkovnik-leytenant (ölümündən sonra)**
**Hətəmov Müşfiq Vaqif oğlu – polkovnik-leytenant**
**Eyyubov Elgiz Çingiz oğlu – mayor**
**Məmmədov Emil Rasim oğlu – mayor**
**Babayev Nihad Akif oğlu – kapitan (ölümündən sonra)**
**Əliyev Rəşad Əmiralı oğlu – kapitan (ölümündən sonra)**
**Mikayıllı Samir Sabir oğlu – kapitan (ölümündən sonra)**
**Babaxanov Elman Ağamirzə oğlu – baş leytenant (ölümündən sonra)**
**Dadaşov Vasif Alihəsən oğlu – baş leytenant**
**Rəhimov Elvin Ehtiram oğlu – baş leytenant (ölümündən sonra)**
**Sadıqlı Məmmədhəsən Meydan oğlu – baş leytenant (ölümündən sonra)**
**Şirəliyev Sahib Yusif oğlu – baş leytenant (ölümündən sonra)**
**Bayramov Ruslan Azər oğlu – leytenant (ölümündən sonra)**
**Əfəndiyev Adil Qədir oğlu – tibb xidməti leytenantı (ölümündən sonra)**
**Ənvərli Aqşin Faiq oğlu – tibb xidməti leytenantı (ölümündən sonra)**
**Feyzullayev Zahir Eyvaz oğlu – leytenant (ölümündən sonra)**
**İsmayılov Ramil Asəf oğlu – leytenant**
**Quluzadə Kamran Pərviz oğlu – leytenant (ölümündən sonra)**
**Yaqubov Mayis Rəhim oğlu – leytenant (ölümündən sonra)**
**Əliyev Ceyhun Fərman oğlu – baş gizir**
**Əliyev Elçin Habil oğlu – baş gizir**
**Məmmədov Bəhruz Lətif oğlu – baş gizir**
**Ələkbərov Bağır Əsəd oğlu – gizir (ölümündən sonra)**
**Həsənov Nicat Əkbər oğlu – gizir**
**İsmayılov Əmrah Xudaverdi oğlu – gizir (ölümündən sonra)**
**Novruzlu Ümid Bahadur oğlu – gizir (ölümündən sonra)**
**Tahirov Vüsal Mehdi oğlu – gizir (ölümündən sonra)**
**Vəliyev Hüseyn Həşim oğlu – kiçik gizir**
**Əliyev Yadigar Səfxan oğlu – çavuş (ölümündən sonra)**
**Abdullazadə Tağı İlham oğlu – kiçik çavuş (ölümündən sonra)**
**Xəlilli Murad Vəli oğlu – kiçik çavuş (ölümündən sonra)**
**Məmmədov Zaman Habil oğlu – kiçik çavuş (ölümündən sonra)**
**Allahverdiyev Məhəmməd Kəmaləddin oğlu – əsgər**
**Alməmmədov İman Tarverdi oğlu – əsgər (ölümündən sonra)**
**Babayev Babaxan Əlövsət oğlu – əsgər (ölümündən sonra)**
**Bağırov Ramin Nəriman oğlu – əsgər (ölümündən sonra)**
**Bədirli Saməddin Cəfər oğlu – əsgər**
**Cəfərov Ruslan Mövlan oğlu – əsgər (ölümündən sonra)**
**Cəfərov Ülvi Habil oğlu – əsgər (ölümündən sonra)**
**Cəlilov Həsən Məhərrəm oğlu – əsgər (ölümündən sonra)**
**Cəlilov Sahil Oktay oğlu – əsgər (ölümündən sonra)**
**Eyvazov İslam Həsən oğlu – əsgər (ölümündən sonra)**
**Əhmədov Əhmədxan Məzahir oğlu – əsgər (ölümündən sonra)**
**Əhmədov Mərhəmət Adil oğlu – əsgər (ölümündən sonra)**
**Əhmədov Rəvan Yafət oğlu – əsgər (ölümündən sonra)**
**Əhmədov Tacir Mehdi oğlu – əsgər (ölümündən sonra)**
**Əliyev Elgün İsmayıl oğlu – əsgər**
**Əliyev Lətif Oruc oğlu – əsgər (ölümündən sonra)**
**Əliyev Məhəmməd Yaqub oğlu – əsgər (ölümündən sonra)**
**Əliyev Vüsal Məhərrəm oğlu – əsgər**
**Əsgərov Samir Xasay oğlu – əsgər**
**Əsgərov Təbriz Çapay oğlu – əsgər (ölümündən sonra)**
**Əsgərov Vüqar Rza oğlu – əsgər (ölümündən sonra)**
**Əzizli Elnur Şahin oğlu – əsgər (ölümündən sonra)**
**Göydağlı Ramazan Əbülfət oğlu – əsgər (ölümündən sonra)**
**Gözəlov Rüfət Əzim oğlu – əsgər (ölümündən sonra)**
**Həsənov Elməddin Elşən oğlu – əsgər (ölümündən sonra)**
**Hümbətov İmaməddin Muxtar oğlu – əsgər (ölümündən sonra)**
**Xaməmmədov Şirxan Xaməmməd oğlu – əsgər (ölümündən sonra)**
**Xudiyev Toğrul Habil oğlu – əsgər (ölümündən sonra)**
**İbrahimov Ayaz Sultan oğlu – əsgər (ölümündən sonra)**
**İbrahimov İbrahim Etibar oğlu – əsgər (ölümündən sonra)**
**İbrahimov Qurban Namiq oğlu – əsgər (ölümündən sonra)**
**İbrahimov Ruzi Əliağa oğlu – əsgər (ölümündən sonra)**
**İbrahimov Seymur Zamin oğlu – əsgər (ölümündən sonra)**
**İlyasov Fərid İbad oğlu – əsgər (ölümündən sonra)**
**İsgəndərov Niyaməddin Qulu oğlu – əsgər (ölümündən sonra)**
**İsmayılov Bahaləddin Temraz oğlu – əsgər (ölümündən sonra)**
**İsmayılov Elvin Arif oğlu – əsgər**
**İsmayılov Əli Ələkbər oğlu – əsgər**
**Quliyev Aqil Mətləb oğlu – əsgər (ölümündən sonra)**
**Quliyev Kənan Vaqif oğlu – əsgər (ölümündən sonra)**
**Quliyev Sadıq Qiyas oğlu – əsgər**
**Qurbanov Xansu Elsevər oğlu – əsgər (ölümündən sonra)**
**Mahmudlu Babək Süleyman oğlu – əsgər (ölümündən sonra)**
**Mədətli Zülal Rəhim oğlu – əsgər (ölümündən sonra)**
**Məmmədəliyev Saday Rza oğlu – əsgər (ölümündən sonra)**
**Məmmədov Araz Qəhrəman oğlu – əsgər (ölümündən sonra)**
**Məmmədov Əli Abbas oğlu – əsgər (ölümündən sonra)**
**Məmmədov Kəmaləddin İsrail oğlu – əsgər (ölümündən sonra)**
**Mirzəyev Aslan Məqsud oğlu – əsgər (ölümündən sonra)**
**Mirzəyev Sarvan Əli oğlu – əsgər (ölümündən sonra)**
**Novruzlu Pərviz Qorxmaz oğlu – əsgər (ölümündən sonra)**
**Novruzov Rahim Ruhən oğlu – əsgər**
**Orucov Coşqun Oruc oğlu – əsgər (ölümündən sonra)**
**Ramazanov Rasim İsmayıl oğlu – əsgər (ölümündən sonra)**
**Rəhimov Yalçın Elçin oğlu – əsgər (ölümündən sonra)**
**Rüstəmov Basid İdris oğlu – əsgər (ölümündən sonra)**
**Rzayev Kənan Əbdürrəhman oğlu – əsgər (ölümündən sonra)**
**Rzayev Yağmur Məhərrəm oğlu – əsgər**
**Sadıqov Elvin Namiq oğlu – əsgər (ölümündən sonra)**
**Salahov Sərxan Həsənqulu oğlu – əsgər (ölümündən sonra)**
**Seyidov Miryasin Mirqafar oğlu – əsgər (ölümündən sonra)**
**Səfərov Qəşəm Taməddin oğlu – əsgər (ölümündən sonra)**
**Şirbəyli Sirus Hamil oğlu – əsgər (ölümündən sonra)**
**Tağıyev Azər Kamil oğlu – əsgər (ölümündən sonra)**
**Tağızadə Fərid Bəkir oğlu – əsgər**
**Tağızadə Rüfət Bəkir oğlu – əsgər**
**Teymurbəyli Aqil Kamran oğlu – əsgər**
**Teymurov Elvin Mustafa oğlu – əsgər (ölümündən sonra)**
**Vəliyev Şəmsəddin Aqil oğlu – əsgər (ölümündən sonra)**
**Yüzbaşyev İsmayıl Fəzayıl oğlu – əsgər (ölümündən sonra)**



*Müstəqil Azərbaycan tərəqqi yolunda əmin addımlarla irəliləyir. Ölkəmizin inkişafını təmin edən amil isə xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Uğurlu inkişaf siyasəti, həmçinin genişmiqyaslı islahatlar vətəndaş məmnunluğunu artırır. Eyni zamanda əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən addımlar Azərbaycanın gücünün artmasına, milli həmrəyliyin güclənməsinə xidmət edir.*

# İnkişafın Naxçıvan nümunəsi

### Muxtar respublika sürətli inkişaf yolunda

Azərbaycanın bütün regionları kimi, Naxçıvan Muxtar Respublikası da uğurla inkişaf edir, qarşıya qoyulan hədəflər reallaşdırılır. Ümumiyyətlə, Naxçıvanın tənəzzüldən xilas olaraq inkişaf yoluna çıxmasının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. 1990-cı illərin əvvəlində olduqca gərgin və mürəkkəb şəraitdə olan muxtar respublika ulu öndərin misilsiz xidmətləri nəticəsində böyük uğurlar qazanıb. 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən cənab Vasif Talıbovun rəhbərliyi ilə görülən işlər blokada şəraitində olan Naxçıvanın nailiyyətlərini davamlı edib.

Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı və təhlükəsizliyi Prezident cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Ötən il Prezident cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən qeyd etdi ki, ***"Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik"***. Dövlət başçısı, həmçinin Naxçıvanın ixrac potensialının gücləndirilməsi, bərpa olunan enerji gücünün artırılması və ordu quruculuğu ilə bağlı vacib məqamlara toxundu. Təbii ki, bu istiqamətdə görülən işlər, həyata keçirilən layihələr hədəflərə çatmağa imkan verməklə yanaşı, Naxçıvanın gələcək inkişafında mühüm rol oynayacaq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən tədbirlərin nəticəsi kimi, muxtar respublika iqtisadiyyatının dayanıqlı inkişafı təmin olunub, əhalinin rifah halı daha da yaxşılaşıb. Muxtar respublika ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müasir standartlar əsasında təhsil müəssisələri, sağlamlıq ocaqları tikilib və ya əsaslı təmir olunub, respublika əhəmiyyətli və bütün kənd yolları yenilənib, yüksək səviyyəli infrastruktur quruculuğu həyata keçirilib, fasiləsiz elektrik, qaz və su təminatı yaradılıb. Bütün bunlar inkişaf və tərəqqinin bariz nümunəsidir. Eyni zamanda bir sıra istehsal sahələrində məhsul istehsalının həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib.

### Görülən işlər vətəndaş məmnunluğunun artmasına xidmət edir

Görülən işlər həm də muxtar respublikanın simasını köklü surətdə dəyişib. Quruculuq və abadlıq işləri mütəmadi şəkildə yeni parklar salınır, inzibati binalar, o cümlədən məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları, idman obyektləri modern üslubda, lakin milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınmaqla yüksək zövqlə inşa edilib vətəndaşların ixtiyarına verilir. Bütün obyektlər müasir kommunikasiya, o cümlədən yüksək sürətli internetlə tam təmin edilib.

Bunlarla yanaşı, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi əsas prioritet sahələrdəndir. Ən mühüm məsələlərdən biri odur ki, kəndlərdə ticarət və xidmət obyektləri daxil olmaqla hər cür zəruri infrastrukturun yer aldığı nümunəvi kənd mərkəzləri yaradılıb. Habelə kəndlərdə yaşayan əhalinin məşğulluğu təmin edilib. İnsanların kənd təsərrüfatı ilə məşğul olmaları, bol məhsul əldə etmələri üçün şərait yaradılıb. Şübhəsiz ki, bütün bu işlər vətəndaş rahatlığı və məmnunluğunun artmasına xidmət edir.

### Naxçıvan əhalisi gələcəyə böyük inamla baxır

Bir sözlə, Naxçıvan bu gün Prezident cənab İlham Əliyevin yüksək diqqət və qayğısı, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən uğurlu fəaliyyət sayəsində öz intibah dövrünü yaşayır. Naxçıvan əhalisi gələcəyə böyük inamla baxır və bugünkü nailiyyətləri gələcək inkişafın təminatçısı kimi görür.

Ən mühüm məsələlərdən biri odur ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın parlaq Qələbə qazanması Naxçıvanın da inkişafı və təhlükəsizliyi baxımından xüsusi önəmə malikdir. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın mətninə nəzər saldıqda Türkiyə ilə Azərbaycanı, eyni zamanda Türkiyə ilə Rusiyanı birləşdirən ən qısa quru yolu olacaq Naxçıvanla gediş-gəliş koridorunun olması, xüsusilə diqqəti cəlb edir. Təbii ki, bu regional, həm də qlobal əhəmiyyətli uğurdur. Bu yoldan bütün region faydalanacaq, çünki Çindən Avropaya qədər kommunikasiya yolu formalaşdırılacaq və bu, böyük iqtisadi perspektiv vəd edir. Türkiyədən Orta Asiyaya gedən yüklər də daha qısa vaxtda ünvanına çatmış olacaq ki, bu da regionda əməkdaşlığın dairəsinin genişlənməsinə təkan verəcək. Beləliklə, Naxçıvanın blokadadan azad olunması gələcək inkişaf baxımından çox böyük önəm daşıyır.

İnanırıq ki, muxtar respublika bundan sonra da inkişaf yolunda əmin addımlarla irəliləyəcək. 25 il əvvəl Ali Məclisin Sədri seçilən və ümummilli lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən cənab Vasif Talıbova bu yolda yeni uğurlar arzulayırıq.

**Siyavuş NOVRUZOV**
***Milli Məclisin regional məsələlər komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü***
***AZƏRTAC***

# Azərbaycan Türkiyə ilə Naxçıvana təbii qazın tədarükünə dair anlaşma memorandumu imzalayıb



*Dekabrın 15-də Ankarada Azərbaycanın Energetika Nazirliyi ilə Türkiyənin Energetika və Təbii Sərvətlər Nazirliyi arasında Naxçıvan Muxtar Respublikasına təbii qazın tədarükünə dair anlaşma memorandumu imzalanıb.*

Sənədi Azərbaycan tərəfindən Energetika naziri Pərviz Şahbazov, Türkiyə tərəfdən isə Energetika və təbii sərvətlər naziri Fatih Dönməz imzalayıb.

Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad olunması ilə başlayan imzalanma mərasimində Energetika naziri Pərviz Şahbazov Türkiyənin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəti mövqeyini, haqq işimizə verdiyi tərəddüdsüz dəstəyini həmrəyliyimizin bariz nümunəsi kimi qiymətləndirib. Bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycan-Türkiyə qardaşlığının, sarsılmaz birliyinin qələbəsidir: "Bu, iki ölkənin liderlərinin bir-birinə güvəninin, qardaşlığının, gələcəyə aydın baxışlarının zəfəridir. Hər iki ölkənin özü üçün bir dəyərə çevirdiyi ədalət və inkişafın qələbəsidir. Azərbaycan və Türkiyə regionda yeni geosiyasi reallıqların və təhlükəsiz inkişaf mühitinin birgə müəllifləridir. Regionun resurslar, kommunikasiya və logistika potensialının birgə istifadəsinə imkan yaradacaq yeni çoxşaxəli əməkdaşlıq yalnız Azərbaycan və Türkiyə üçün deyil, bölgə üçün, dünya üçün də faydalı olacaq".

Türkiyənin Energetika və təbii sərvətlər naziri Fatih Dönməz isə deyib ki, bizim gücümüz qardaşlığımızdır, qardaşlığımız isə əbədidir: "Bu Zəfərlə birlikdə döyüşlərin, işğalların olduğu bir coğrafiya əvəzinə layihələrin danışıldığı bir bölgə ortaya çıxıb. Türkiyə-Naxçıvan təbii qaz boru xətti də bu Qələbənin bir hürriyyət layihəsidir. Bu layihə Naxçıvanın iqtisadiyyatını canlandıracaq".

Anlaşma memorandumundan bəhs edərkən Energetika naziri Pərviz Şahbazov Naxçıvanın təbii qazla təminatının strateji əhəmiyyət daşıdığını vurğulayıb: Bu gün imzalanan sənəd Naxçıvana Türkiyədən boru kəməri vasitəsilə qaz tədarükünə zəmin yaradır. Həm iki ölkənin şirkətlərinin – SOCAR və BOTAŞ-ın təbii qazın tədarükü ilə bağlı texniki, ticari, inzibati, hüquqi və digər məsələlərdə əməkdaşlığına təminat verir. Türkiyədən Naxçıvana qaz tədarükü qaz təchizatını şaxələndirəcək və enerji təminatının etibarlılığını artıracaq. Naxçıvan həm İrandan, həm də Türkiyədən dəstək almaqla artan enerji tələbatını tam təmin edə biləcək.

Səfər çərçivəsində nümayəndə heyətləri arasında ikitərəfli görüş keçirilib. Görüşdə yeni çəkiləcək kəmərin Naxçıvanın enerji təhlükəsizliyi baxımından əhəmiyyəti diqqətə çatdırılıb.

**Sabir ŞAHTAXTI**
***AZƏRTAC-ın xüsusi müxbiri***

# Maarifləndirici tədbir keçirilib

***Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Altsisteminin fəaliyyətə başlaması ilə əlaqədar maarifləndirici tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərə göstərilən tibbi xidmətlərdən danışıb. Bildirib ki, yeni istifadəyə veriləcək sistem sağlamlıq imkanları məhdudluğun təyini və qiymətləndirilməsinin təkmilləşdirilməsinə səbəb olacaqdır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxış edərək bildirib ki, təqdimatı olan Tibbi - Sosial Ekspertiza və Reabilitasiya Altsisteminin yaradılması sağlamlıq imkanları məhdudluğun qiymətləndirilməsində vətəndaş-ekspert təması olmadan, elektron müstəvidə və şəxsin kimliyi, göndəriş verən təşkilatın hansı səhiyyə qurumu olduğu bilinmədən anonim olaraq xəstəliyi əks etdirən tibbi sənədlər əsasında şəffaf şəkildə həyata keçirilməsinə imkan yaradacaqdır.

Çıxışlardan sonra yeni altsistem ilə tanışlıq olub, sistemin istifadə qaydaları izah edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Nazirlər Kabinetində dekabr ayının ilk 15 günü ərzində qərarlar qəbul edilib

"Naxçıvan Muxtar Respublikasında tibb müəssisələrinin akkreditasiyası Qaydası"nın təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir. Adıçəkilən qayda mülkiyyətindən, təşkilati-hüquqi formasından və tabeliyindən asılı olmayaraq, Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən tibb müəssisələrinin akkreditasiyasının keçirilməsini müəyyən edir. Tibb müəssisələrinin akkreditasiyası əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması, tibb müəssisələrinin fəaliyyətinin normativ-hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi və əhalinin yüksəkkeyfiyyətli tibbi xidmət göstərən tibb müəssisəsi tərəfindən müayinə və müalicə olunması üçün seçim hüququnun təmin edilməsi məqsədilə aparılır.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 12 dekabr tarixli 206 nömrəli Qərarı ilə bir sıra qərarlarında dəyişiklik edilmişdir. Həmin dəyişikliklərə əsasən "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nin təsdiq edilməsi, "Naxçıvan Muxtar Respublikasında əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nda, "Naxçıvan Muxtar Respublikasında sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası"nda, həmçinin Nazirlər Kabinetinin 2020-ci il 14 aprel tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta Şəhadətnaməsi"nin nümunəvi formasında dəyişikliklər edilmişdir.

Bundan başqa, "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nın təsdiq edilməsi haqqında 2012-ci il 9 oktyabr tarixli 83 nömrəli və "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 18 may tarixli 50 nömrəli Qərarlarında dəyişiklik edilmişdir.

Eləcə də "Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 yanvar tarixli 2 nömrəli Qərarında dəyişiklik edilmişdir.

Adıçəkilən qərarlarla yanaşı, Nazirlər Kabinetinin 209 nömrəli Qərarı ilə "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 iyul tarixli 129 nömrəli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən ictimai iaşə obyektlərinin giriş-çıxışlarında, kassalarda dezinfeksiya məhlulundan istifadə imkanı, o cümlədən dezinfeksiya məhlulundan istifadə üçün müvafiq qurğuların işlək vəziyyətdə olması təmin edilməlidir. Həmçinin məsul şəxs koronavirusla mübarizə ilə bağlı xəbərdaredici məlumatların qonaqlara, işçi heyətə və digər əlaqəli tərəflərə çatdırılmasını təmin etməli, işçi heyət üçün gigiyena və sanitariya qaydaları ilə bağlı təlimlər təşkil edilməlidir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

# Naxçıvan Dövlət Teleradiosunun efir vaxtı 1 saat artırılıb, yenilənən internet saytının təqdimatı olub

Dekabrın 16-da Naxçıvan Dövlət Teleradiosunun efir vaxtının 1 saat artırılması və yeni saytının təqdimat tədbiri keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş muxtar respublikanın kütləvi informasiya orqanlarını da əhatə edib. 25 il bundan öncə, 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən görkəmli dövlət xadimi Vasif Talıbovun bütün sahələr kimi, mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli qayğısı yeni keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olub, muxtar respublika mətbuatı yeni inkişaf müstəvisinə çıxıb.

Qeyd olunub ki, Naxçıvan Dövlət Televiziyasının və Radiosunun internet üzərindən yayımlanması, yeni texnologiyaların iqtisadiyyatın və həyatın bütün sahələrində tətbiqi, sürətli internetə çıxış imkanlarının yaradılması və rəqəmsal yayıma keçid Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılmasına imkan verir. Teleradionun efir vaxtının daha bir saat artırılaraq 20 saata çatdırılması və saytın yenilənməsi bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi mühüm əhəmiyyətə malikdir.






Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru Ramal Məmişov və televiziyanın gənc əməkdaşı Aysun Məmmədli də tədbirdə çıxış edərək son illərdə bu sahədə görülən işlərdən danışıb, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq ediblər.

Sonra Naxçıvan televiziyasının yenilənən internet saytının təqdimatı olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədr müavini Xaliq Babayev məlumat verib ki, Naxçıvan televiziyasının 2020-ci il üçün təsdiqlənmiş "Tədbirlər Planı"na əsasən Naxçıvan televiziyasının saytı kodlama üsulu ilə ən müasir və təkmil formada yenidən hazırlanıb, saytın təhlükəsizliyi üçün bütün lazımi işlər görülüb. Sayt əvvəlki *www.naxcivantv.az* domen adı da saxlanılmaqla yeni *www.ntv.az* domeninə də bağlanılıb.

Yeni hazırlanan sayt ümumi dizaynı, məzmunu, istifadəçi rahatlığı, texniki imkanları baxımından müasir standartlara tam cavab verir. Saytın strukturu təkmilləşdirilib, yeni bölmələr əlavə edilib və ən son internet texnologiyaları əsasında, kodlama üsulu ilə hazırlanıb.

Sayt 13 əsas bölmə, 9 altbölmədən ibarətdir. Əsas menyuda "Xəbərlər", "Verilişlər", "Həftəlik proqram", "Qalereya", "Haqqımızda", "Redaksiyalar", "Yayım tezlikləri", "Vakansiya", "Əlaqə" və "Radio" bölmələri yerləşdirilib. Saytın əsas səhifəsində müasir formada slayder bölməsi hazırlanıb. Həmin bölmə şəbəkə verilişlərinin təqdimatı və efir günü barədə informasiyaları əks etdirir. Əsas səhifədə müasir proqramlama üsulu ilə "Efirdə bu gün" bölməsi yaradılıb. Həmin bölmədə efirdə gedən verilişin adı fərqli rəngə boyanır və "Efirdə" yazısı yanıb-sönür. Bu da izləyicilərə hazırda efirdə olan proqram haqqında məlumat verir. Həmin bölməyə klik etməklə birbaşa canlı yayım səhifəsinə keçid alaraq verilişi izləmək imkanı yaradılıb. Əsas səhifədə yer alan "Anonslar", "Video xəbərlər", "Xəbərlər lenti", "Son buraxılışlar", "Verilişlər", "Filmlər" və "Televernisaj və videoçarxlar" bölmələri müntəzəm olaraq televiziyanın istehsalı olan materiallar ilə yenilənir.

Saytın xəbərlər bölməsində operativ və mühüm xəbərlər yer alır. Fotoxəbər və videoxəbər bölmələri də zənginləşdirilib. Əvvəlki illərin informasiyaları saytın bazasına köçürülərək "Nuhçıxan" İnformasiya Agentliyinin təkmil bazası ilə sinxronlaşdırılıb.

İnternet istifadəçiləri "Canlı yayım" bölməsinə keçid etməklə Naxçıvan televiziyasını internet üzərindən birbaşa izləyə biləcəklər. Tamaşaçılar saytın arxivində televiziyanın son 7 gündəki efir materiallarını da izləmək imkanına malikdirlər. Eyni zamanda saytda Naxçıvan Dövlət Radiosunun canlı dinləmə səhifəsinə və "Nuhçıxan" İnformasiya Agentliyinin saytına da keçid linkləri yerləşdirilib.

Naxçıvan televiziyasının 100 minlərlə istifadəçisi olan müxtəlif sosial şəbəkə hesablarının keçid linkləri də saytda yerləşdirilib.

Yeni saytın mobil telefonlar üçün interfeysi də müasir dizaynda hazırlanıb, bütün növ əməliyyat sistemləri və brauzerlərə uyğunlaşdırılıb.

**Turab HACIZADƏ**

# Bu ilin ötən dövründə AMEA Naxçıvan Bölməsi əməkdaşlarının 700-dən çox elmi əsəri çap edilib



***AMEA Naxçıvan Bölməsində 2020-ci ildə görülən elmi və elmi-təşkilati işlərin yekunlarına dair keçirilən tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb, müvafiq istiqamətlər üzrə aparılan tədqiqatlardan danışıb.***

Bölmənin Elm və təhsil şöbəsinin müdiri, dosent Orxan Bağırov bildirib ki, bəhs olunan dövrdə bölmə əməkdaşlarının 18 monoqrafiyası, 19 kitabı, 1 metodik vəsaiti, 462 elmi məqaləsi, 207 konfrans materialı, 12 tezisi olmaqla, 719 elmi əsəri çap olunub, bir xəritə və bir buklet tərtib edilib. Əsərlərdən 3 monoqrafiya, 1 kitab, 91 məqalə, 67 konfrans materialı və tezislər olmaqla cəmi 174 əsər xaricdə nəşr olunub. Məqalələrin 20-si Clarivate Analytics (Tomson Reuters) olmaqla, 57-si impaktfaktorlu jurnallarda çapdan çıxıb. Elmi məqalələrin 111-i xaricdə olmaqla, 432-si beynəlxalq kodlu nüfuzlu elmi jurnallarda dərc olunub. Bölmədə iki seriya üzrə "Elmi əsərlər" və "Axtarışlar" jurnalının hər birinin üç nömrəsi çapdan çıxıb. Bölmə əməkdaşları "Vikipediya" açıq dünya ensiklopediyasında 20 yeni məqalə yerləşdirib, 5 yeni şablon yaradıb və 50-dən çox məqalə üzərində redaktə işləri aparıblar.

Qeyd olunub ki, ötən dövrdə akademik və müxbir üzvlər respublikada və xaricdə keçirilən 6 beynəlxalq konfransda, muxtar respublikada keçirilən 11 konfrans, tədbir və təqdimatda çıxış ediblər. 20 bölmə, 7 muxtar respublika, 1 beynəlxalq səviyyəli konfrans, tədbir və təqdimat, 7 tədbir, oxunması zəruri olan kitabların müzakirəsi, o cümlədən çap olunmuş 15 kitab və monoqrafiyanın təqdimatı keçirilib. Hesabat dövründə bölmə üzrə 2 beynəlxalq səviyyəli qrant layihəsinin icrası davam etdirilib.

Vurğulanıb ki, hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin AMEA Naxçıvan Bölməsinə hamiliyə verilmiş 5 ixtisası üzrə təhsil alan tələbələrin iştirakı üzrə bölmənin elmi-təqiqat müəssisələrində, həmçinin bölmə və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə həyata keçirdiyi "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində bir sıra tədbirlər həyata keçirilib.

İclasda tətbiq yönümlü işlər, bölmənin beynəlxalq əlaqələri, maddi-texniki bazanın artırılması sahəsində görülən işlər, mükafat və təltiflər barəsində də geniş danışılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

Yeni nəşrlər

# "Naxçıvan blokadası" ikicildliyi işıq üzü görüb

Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın "Naxçıvan blokadası – sənədli-publisistik toplu", Naxçıvan blokadası – Naxçıvan dünən və bu gün" adlı 2 cildliyi işıq üzü görüb. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr edilən kitablar ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanla bağlı arzularını reallığa çevirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikaya rəhbərliyinin 25 illiyinə həsr olunub. Yeni nəşrlərin rəyçisi Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərlidir. Poliqrafik tərtibatı ilə ilk baxışdan diqqəti cəlb edən yeni nəşrlər müəllifin 2010-cu ildə milli mətbuatımızın 135 illiyinə həsr etdiyi "Qəzet jurnalistikası", 2020-ci ildə milli mətbuatımızın 145 illiyinə həsr etdiyi "Naxçıvanın publisistik xəritəsi" adlı kitablarından sonra oxucularla növbəti görüşüdür.

14 fəsildən ibarət olan birinci cilddə 70 illik əsarətdən sonra rus imperiyasının Azərbaycanı itirmək yanğısı ilə azərbaycanlılara qarşı törətdiyi faciələr, nankor ermənilər tərəfindən sərhədlərimizdə yaradılan iğtişaşlar, onların Azərbaycan torpaqlarına qarşı iddialara şirnikləndirilməsi, bütün bu hadisələrin fonunda Naxçıvan Muxtar Respublikasının blokadaya salınmasından, Sədərək hadisələrindən, naxçıvanlıların çətin həyat tərzindən, acı günlərindən, eyni zamanda mübarizliyindən, bütün çətinliklərə mərdliklə sinə gərmələrindən bəhs olunur. Kitabda real həyat hadisələrini tarixi sənədlər, mətbu orqanlarda dərc olunan sənədli materiallar təsdiq edir. Ümummilli liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə blokada Naxçıvanında naxçıvanlılarla birlikdə yaşaması, bu diyarın insanlarının əsl qurtuluşçusuna çevrilməsi, qonşu dövlətlərə üz tutub şəxsi nüfuzu hesabına naxçıvanlıları aclıq, səfalət girdabından xilas etməsi və bunu sübut edən faktlar yer alıb. Müəllif həmin dövrü bu günün prizmasından qələmə alaraq tarixə dönmüş qısa və həm də keşməkeşlərlə xarakterizə edilən zaman kəsiyinin salnaməsini yarada bilib.




12 fəsildən ibarət olan ikinci cilddə isə "Şərq qapısı" qəzetinin 1990-1995-ci illərdə nəşr olunan saylarında Naxçıvanın tənəzzülə uğrayan həyatından, blokadanın bu diyarda yaratdığı çətinliklərdən, geriləmələrdən bəhs edən materiallar toplanılıb. Toplanan materiallara qarşılıq olaraq həmin illərdə ulu öndərimizin Naxçıvanda başladığı işləri böyük məsuliyyət və bacarıqla, ardıcıl şəkildə davam etdirməklə blokada Naxçıvanının dünəninin fonunda bu gününü yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvana bəxş etdiyi töhfələrin kiçik bir qismi fotoların və rəsmi statistikanın dili ilə təqdim olunur, "Blokada Naxçıvanı: dünən və bu gün" mənzərəsi yaradılır.

Bütün jurnalistlik fəaliyyəti dövründə qədim və gündən-günə gəncləşən Naxçıvanımızın tarixi, müasir inkişafı, mədəniyyəti, milli-mənəvi dəyərləri, ümumiyyətlə, doğma diyarımızın hər bir sahəsi yaradıcılığından qırmızı xətt kimi keçən müəllif öz ənənəsinə sadiq qalaraq bu kitablarında da qarşısına qoyduğu vəzifəni yerinə yetirə bilib.

**Xəbərlər şöbəsi**

# "Naxçıvanda son 25 ildə sosial-iqtisadi inkişaf" adlı respublika konfransı keçirilib

*"Naxçıvan" Universitetində "Naxçıvanda son 25 ildə sosial-iqtisadi inkişaf" adlı respublika konfransı keçirilib.*

Plenar və bölmə hissələrindən ibarət olan konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, son 25 ildə sosial, iqtisadi, mədəni, humanitar, siyasi və digər sahələrdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər qədim diyarın inkişafının davamlılığını təmin edib. Ulu öndərimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi xəttin uğurla davam etdirilməsi, görülən hər bir işin elmi əsaslara söykənməsi, uzunmüddətli inkişafın tərkib hissəsi olması sosial proqramların reallaşdırılmasına, əhalinin rifah halının gündən-günə daha da yaxşılaşmasına yol açır.

Turizm Departamentinin direktoru Əkbər Novruzovun "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf tendensiyası", Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Hüseyn Bağırsoylunun "Naxçıvan İqtisadi Rayonunun ölkə iqtisadiyyatında yeri və təsərrüfatının inkişaf mərhələləri", Naxçıvan Dövlət Universitetinin əməkdaşı, professor Teymur Abbasovun "Müasir iqtisadi şəraitdə Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadiyyata keçidin zəruriliyi", iqtisad üzrə elmlər doktoru Mehdi Bağırovun "Mühasibat uçotunun təməl tərkib elementləri: İqtisadi təhlil və nəzarət fəaliyyətinin qarşılıqlı əlaqələri", Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru, dosent Mehriban İmanovanın "Uğurlu siyasət və əsrə bərabər inkişaf nümunəsi" mövzularında çıxışları dinlənilib.



Bildirilib ki, son 25 ildə həyata keçirilən kompleks quruculuq işləri Naxçıvan Muxtar Respublikasını bütünlükdə əhatə edib. İnzibati və yaşayış binalarının istifadəyə verilməsi ilə yanaşı, yeni parklar salınır, sakinlərin və turistlərin mənalı istirahəti təşkil olunur. Naxçıvan şəhərində tarixi görkəm qorunub saxlanılmaqla yanaşı, həm də müasir şəhər infrastrukturu yaradılıb. Muxtar respublikanın rəngarəng landşaftı, qədim tarixi, mədəniyyət və təbiət abidələri mövcud sabitlik, ekoloji cəhətdən təmiz qida məhsulları və müasir infrastruktura malik olan yaşayış məntəqələri burada turizmin bir çox növünün inkişafına zəmin yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində yeni turizm mərkəzləri yaradılır və inkişaf etdirilir.

Konfrans öz işini bölmələr üzrə davam etdirmişdir.

**Seyfur HACIMURADOV**

*Əfsanəyə dönən ömürlər*

# Ölməzliyə qovuşan qəhrəman



*“Naxçıvan tarixi” çoxcildliyinin ikinci cildində Naxçıvan xanlığının Kəngərli süvariləri haqqında deyilir: “Onlar haqqında fikir demək üçün gərək o qoşunları döyüş vaxtı müşahidə edəsən. Bunlar elə bil ki, qəzəblənmiş Allahın odu və ildırımıdırlar. Döyüş vaxtı göydən düşmənlərin lap mərkəzinə düşürlər, ölüm və dəhşət səpələyirlər”.*

Tarixin bütün dövrlərində döyüşkənliyi və cəsarəti, igidliyi, qəhrəmanlığı ilə tanınan naxçıvanlılar həmişə öz sözünü deyib. Əlincənin alınmazlığı, Babəkin rəşadəti, Naxçıvanskilərin, Kəngərlilərin döyüş ruhu həmişə dillərə dastan olub.

Bu gün də xalqımızın böyük zəfərində öz imzası var yurdumuzun igidlərinin. Bir aydan çox davam edən Vətən müharibəsində boy göstərən, dastan yazan igidlərimiz qəhrəman kimi öz yurduna qayıtdı. Bu, elə bir qayıdış oldu ki, bütün Naxçıvan yollara çıxdı, öz balası kimi qarşıladı onları, şəhadət məqamına yetişən bu qəhrəman oğulları. Naxçıvanın qeyrət qalası Sədərəyin igid oğullarından biri – kiçik çavuş Tağı Abdullazadə də bu məqama yüksəlib.

Qəhrəmanın atası İlham Abdullayev Sədərək döyüşlərinin iştirakçısıdır:

– Naxçıvanlılar ötən əsrin 80-ci illərinin sonlarında da böyük cəsarət və hünər göstərib sərhədlərimizi düşməndən qorudular. Həmin illərdə silah-sursatımız olmasa da, Vətən sevgimiz var idi. Hansı ki, bizə atalarımızdan ərməğan qalmışdı. İgidlərimiz səngərlərdə günlərlə ac-susuz qalsa da, yüzlərlə şəhid versək də, torpağımızı qoruduq. Bununla da igidlərimiz öz Vətən borcunu bitmiş hesab etmədilər. Doğma Azərbaycanımızın bağrında açılan Qarabağ yarasına da dərman oldu igid oğullarımız. “Harada Azərbaycan bayrağı dalğalanırsa, ora Vətəndir”, – deyib doğulduqları torpaqlardan yüzlərlə kilometr uzaqda olan Qarabağa üz tutdular, döyüşüb canlarından keçdilər.

Kərki kəndində və Sədərəkdə gedən döyüşlərdə yüzlərlə igid öz canından keçdi. O döyüşlərdə yaralansam da, bu gün o yaraların verdiyi ağrılar mənə qürur yaşadır. Çünki torpağım uğrunda keçmişəm sağlamlığımdan. Oğlum bir ildən artıq idi ki, Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edirdi. Vətən müharibəsi başlayan gün o, könüllü olaraq Qarabağa getmək üçün müraciət etmişdi. Hər dəfə danışanda deyirdi ki, düşmənin canını alırıq, artıq son çırpınışlarıdır. Torpaqlarımız qayıdır.

Tağı kimi on oğlum olsa, onunu da Vətənə qurban verərdim. Yetər ki, bu dövlət yaşasın, övladlarımız müzəffər bir xalqın övladı olsunlar. Uca Tanrı dövlətimizi var eləsin, ulu öndərimizin ruhu şad olsun. Onun vəsiyyəti, arzuları yerinə yetdi. Bu gün bayrağımız işğaldan azad olunmuş yurd yerlərimizdə dalğalandıqca, Ana Vətənin müqəddəs torpağında igid Azərbaycan əsgəri dolaşdıqca o torpaqlar uğrunda canından keçənlərin ruhu şad olur.

Şahnaz ana qürurludur: – Gözümün ağı-qarası bircə oğlum məni bu yüksək mərtəbəyə layiq gördü. Şəhid anası... İndi mən bütün azərbaycanlı oğullarının anasıyam. Oğul dərdini, nisgilini mənə unutduran, mənə böyük fəxarət gətirən odur ki, oğlum torpaq uğrunda şəhid olub. Onun adı ölümsüzlər siyahısına yazılıb. Yeganə oğlumun uğrunda canından keçdiyi torpağa qədəm qoyanda onun nə qədər uca bir zirvəyə sahib olması ilə təsəlli tapacağam. Ali Baş Komandanın Sərəncamı ilə oğlumun “Vətən uğrunda” medalı ilə təltif edilməsi oğul həsrəti ilə yanan qəlbimə bir az da olsa, rahatlıq gətirdi.

Tağının bölük komandiri, qazi Təbriz Zeynalov da öz əsgərinin igidliyindən ağızdolusu danışır. Deyir ki, yaralananda onu döyüş mövqeyindən Tağı çıxarıb, ilk tibbi yardım göstərib. O, mənim bu gün sağ olmağımın səbəbkarıdır. Mən ağır yaralananda o, öz yükü ilə bərabər, mənim də döyüş ləvazimatlarımı götürüb meşəlik ərazidə 10 kilometrə yaxın yolu piyada daşıyıb.

Bu xalq, bu millət həmişə igid övladları ilə qürur duyub. Tağının da, orada şəhid olan başqa dostlarımızın da tək arzusu var idi: Qarabağı azad edib Naxçıvanımıza qalib kimi qayıtmaq. Onun və digər yoldaşlarımızın şəhid olması hamımızı dərindən sarsıtdı. İgid Vətən oğulları gözlərini əbədi olaraq yumub öz canlarını bir ovuc torpağa qurban verdilər. Qoy bircə övladını Vətənə qurban verən atalar, analar düşünməsin ki, oğlunu itirdi. Tağı bu gün cismən həyatda olmasa da, ruhu hər zaman bizimlədir. Onun ata və anası bizim əmanətimizdir.

Murad Həsənov (döyüş yoldaşı): – Biz bir yerdə xidməti borcumuzu yerinə yetirirdik. Hadrut istiqamətindəki ilk pusqu 13 oktyabr gecə saatlarında oldu. Kiçik çavuş Tağı Abdullazadə düşmənin arxa istiqamətindən hücum edərək düşmən hərbçilərini məhv etdi. Meşə istiqamətində hərəkətə davam edərək 400-500 metr irəli getdikdən sonra yenidən pusquya düşdük, oradan çox çətinliklə çıxdıq. Həmin istiqamətdə 3789 metr hündürlükdə yerləşən Tuzluca yüksəkliyində minomyot mərmisi düşməsi nəticəsində Tağı sağ tərəfindən, başından ağır zərbə alması ilə şəhidlik mərtəbəsinə yüksəldi.

Kərim Quliyev (döyüş yoldaşı): – Naxçıvandan Qarabağa gedəndə hamımız bir nəfər kimi döyüşə can atırdıq. Buradan birlikdə getdiyimiz yoldaşlarımdan bir neçəsi qazi, şəhid oldu. Düşmənə göz açmağa imkan vermirdik. Orada hər kəsin bir amalı var idi: bircə qarış da olsa, torpağı azad edə bilmək. İşğalda olan ərazilərimizi hissə-hissə geri qaytardığımız saatlar ən xoşbəxt anımız olurdu. Tağı ilə bir ilə yaxın idi, bir yerdə xidmət edirdik. O, bundan öncə Heydərabad qəsəbə tam orta məktəbində Gənclərin çağırışaqədərki hazırlıq fənnini tədris edirmiş. Oradan ayrılıb hərbçi sənətini seçməyi də elə Vətən sevgisindən doğmuşdu. Birlikdə getmişdik Qarabağa, amma, təəssüf ki, birlikdə qayıda bilmədik. Onlar şəhadət şərbətini içib ölümsüzlüyə qovuşdular. Vətən yolunda canından keçən igidimizin Vətən sevgisi, döyüş yolu gələcək nəsillərə örnəkdir. Biz onu və digər yoldaşlarımızın xatirəsini daim yaşadacağıq.

Yazını tamamlayanda Tağının dəfnində balaca Yusifin: “Ana, o atamdı torpağa qarışdı?” sualı yadıma düşür. Və deyirəm ki, körpə balamız, atan kimi oğullar öz qanı, canı ilə qarışdılar torpağa, Vətən torpağını öz qanları ilə suladılar ki, qeyrət, şərəf, mərdlik, hünər, təəssübkeşlik bitsin... Gələcək nəsil görsün necə mübariz, vətənpərvər xalq olduğumuzu. Gələcəkdə kim olduqlarını, haradan gəlib, haraya getdiklərini bilsinlər. Torpağın bütövlüyü uğrunda, bu bayraq enməsin deyə canından keçən igidlərin övladları olmaqdan qürur duysunlar. Onların qəhrəmanlığı düşməndən azad etdikləri yerlərdə cücərəcək, böyüyüb köklü bir çinara dönəcək. Bu, Vətənin ölümsüz çinarları olacaq. Onların kölgəsində sənin kimi yüzlərlə igid oğul böyüyəcək.

**Ramiyyə ƏKBƏROVA**

## Tələbələrlə görüş

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində Naxçıvan Dövlət Universitetinin xidmətin hamiliyinə verilmiş Torpaqşünaslıq və aqrokimya ixtisasının tələbələri ilə növbəti görüş keçirilib. Tədbiri giriş sözü ilə xidmətin rəisi Müslüm Cabbarzadə açaraq ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə müəyyənləşdirilmiş vəzifələrin icrası istiqamətində görülmüş işlərdən danışıb. O, hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrin bacarıqlı mütəxəssis kimi formalaşması, yaradıcı düşüncənin inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Sonra tələbələrə innovativ ideyalar əsasında yeni layihələrin işlənməsi ilə bağlı məşğələ keçilib, onları maraqlandıran suallar cavablandırılıb.

Tələbələr xidmətdə iş prosesi, elektron informasiya sistemləri, xəritəçəkmə işləri ilə tanış olub, müasir geodeziya-ölçü avadanlıqlarına baxış keçirilib.

* * *



Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin hamiliyinə verilmiş Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan IV kurs tələbələrinin istehsalat təcrübəsi davam edir. Tələbələr “Saat Meydanı” otelinin fəaliyyəti ilə yaxından tanış olublar.

Qəbul-qeydiyyat şöbəsinin müdiri Sadiq Məmmədov çıxışında çalışdığı otelin ümumi fəaliyyəti, xidmət bölmələri arasında münasibətlərin koordinasiyası, turist məmnunluğunu təmin etmək üçün həyata keçirilən tədbirlər, xidmət üslubunun tətbiqi sahəsində görülən işlər haqqında söhbət açıb.

Sonra otelin qəbul-qeydiyyat və restoran bölmələrinin fəaliyyəti haqqında danışılıb, suallar cavablandırılıb.

## Onlayn tədbirlərin keçirilməsi davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən pandemiya ilə əlaqədar olaraq tətbiq edilən qaydalara ciddi riayət edilməklə noyabr ayında bir sıra mədəni tədbirlər həyata keçirilmişdir. Ötən ayın əlamətdar mədəni hadisələrindən biri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tərəfindən Vaqif Səmədoğlunun “Mamoy kişinin yuxuları” əsəri əsasında hazırlanmış tamaşaya ictimai baxışın keçirilməsi olmuşdur.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə bağlı ay ərzində nazirlik tərəfindən 3 açıq dərs, 1 seminar, 1 kitab müzakirəsi, 1 film nümayişi, 1 mühazirə, 4 ustad dərs olmaqla, ümumilikdə, 10 tədbir keçirilmişdir.

Noyabr ayında muxtar respublikadakı muzeylərimizi 16 min 146 nəfər yerli, 183 nəfər əcnəbi olmaqla, ümumilikdə, 16 min 329 nəfər tamaşaçı ziyarət etmişdir. Həmçinin ötən ay muzeylərə 74 ədəd yeni eksponat daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Dövlət Bayrağı Muzeyində Şərur rayonunun Qarabürc kənd tam orta məktəbinin şagirdləri üçün elektron dərs keçilmiş, dərsi muxtar respublikanın 200-dən çox təhsil müəssisəsi izləmişdir. Bundan başqa, noyabr ayında ümumtəhsil məktəblərinin şagirdləri üçün muzeylərdə, ümumilikdə, 35 açıq dərs keçilmişdir.

Hesabat ayında muxtar respublikanın muzeyləri sosial şəbəkələrdəki rəsmi hesablarında onlayn ekskursiyalar, həmçinin əlamətdar və tarixi günlər, tanınmış şəxsiyyətlər, muzeylərdə olan eksponatlarla bağlı hazırlanmış məlumat və təbliğat xarakterli 155 paylaşım etmişlər.

Noyabr ayında muxtar respublikanın kitabxanaları tərəfindən də müxtəlif mədəni tədbirlər həyata keçirilmiş, “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan 4 kitabın müzakirəsi aparılmışdır. Bu müzakirələrin ikisi onlayn formada olmuşdur. Həmçinin Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən ay ərzində 3 “Nağıl günü” keçirilmiş, həmçinin Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası və rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxana sistemlərinin uşaq kitabxanaları sağlamlıq imkanları məhdud 19 uşağa səyyar kitabxana xidməti göstərmişdir. “Nağıl günləri” layihəsi çərçivəsində noyabr ayında 11 audionağıl hazırlanaraq sosial şəbəkələrdə 36 paylaşım edilmişdir.

Ötən ay muxtar respublikanın kitabxanalarına 134 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 4 min 786 nəfər, kitab verilişi isə 35 min 326 nüsxə olmuşdur. Həmçinin hesabat ayında elektron kataloqa 203 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqda kitabların sayı 20 min 218-ə çatdırılmışdır. Şəbəkəyə 42 kitab (PDF) işlənmiş və ümumi say 3 min 162 olmuşdur. Ay ərzində elektron kitabxanadan 230 lokal, 875 qlobal olmaqla, 1105 oxucu istifadə etmişdir.

Naxçıvan Dövlət Film Fondu tərəfindən də noyabr ayında görkəmli kino xadimləri, dünya və Azərbaycan kinosunun inciləri haqqında, eləcə də film çəkilişlərindən maraqlı faktlarla bağlı 54 material hazırlanaraq sosial şəbəkələrdə paylaşımlar edilmişdir. Həmçinin ötən ay Naxçıvan Dövlət Film Fondu tərəfindən Naxçıvan şəhər 1,10 və 17 nömrəli tam orta məktəblərin şagirdlərinə “Xoşbəxt ay-ulduz” filmi, eləcə də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinə “Biz qayıdacağıq” və “Dolu” bədii filmləri nümayiş olunmuşdur.

Noyabr ayında gənclərlə iş sahəsində də bir sıra işlər görülmüş, nazirliyin, eləcə də Şahbuz və Şərur Rayon Mədəniyyət şöbələrinin Gənclər birlikləri üzvlərinin iştirakı ilə “Vətən müharibəsinin informasiya cəbhəsində gənclərin fəaliyyəti”, “Xalqımızın Böyük Vətən müharibəsi və Qələbəyə aparan yol” və “Ucalıq zirvəsi, tarixləşən istiqlal türbəsidir şəhidlər” mövzularında onlayn tədbirlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Ailə təsərrüfatı məhsulları yarmarkası keçirilib



Muxtar respublikamızda həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri də yaşayış məntəqələrində kiçik və orta sahibkarlığın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunmasıdır. Məhz ucqar ərazilərdə, sərhəd bölgələrimizdə də bu yolla daha çox iş imkanlarının yaradılması dövlətimiz tərəfindən həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. Naxçıvanda bu təsərrüfat forması ilə məşğul olan insanlara hər cür köməklik göstərilir. Görülən işlərin nəticəsidir ki, belə təsərrüfatların sayı ildən-ilə artır.

Muxtar respublikanın bütün rayonlarında da belə yarmarkaların keçirilməsi nümunəvi ailə təsərrüfatlarının iş təcrübəsinin yayılmasına imkan verir. Sədərək rayonunda Ailə təsərrüfatı məhsulları yarmarkası da bu məqsədlə təşkil edilib. Yarmarkada rayonun kəndlərindən 10-dan artıq ailə təsərrüfatı tərəfindən 125 adda, 2000-dən çox qablaşdırılmış kənd təsərrüfatı məhsulları – mövsümi meyvələr, müxtəlif növ mürəbbə və şirniyyatlar, meyvə əraqları, pendir, cəviz, eləcə də turşular, təbii meyvə şirələri, doşablar, dərman bitkiləri, milli mətbəximizə aid müxtəlif çörək növləri və digər məhsullar alıcılara təqdim edilib.

**Xəbərlər şöbəsi**


### İtmişdir

Əliyev Şahmar Fərəməz oğlunun adına olan 0800067082 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Məmmədov Əli Vaqif oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçunun şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Abdullayev Royal Ziyad oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Atabəylər məhəlləsi, bina 8, mənzil 13 ünvanında yaşamış Əhmədova Zeynab İsmayıl qızının adına olan 9039 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 947